# Qərbi Azərbaycan tarixi torpağımızdır

***2022**-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və həmin bölgədən olan bir qrup ziyalı ilə görüşüb. Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan ziyalılarla görüşünü tarixi hadisə adlandırıb, bu görüşün Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə öz doğma torpaqlarına qayıtmaq inamını daha da möhkəmləndirdiyini bildirib.*



## *Gün gələcək soydaşlarımız təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə doğma diyarımıza qayıdacaqlar*

Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. 2022-ci il avqustun 3-də İctimai Birliyin adı dəyişdirilərək "Qərbi Azərbaycan İcması"ı adlandırılıb. Qurum Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə həmin diyardan qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. Qərbi Azərbaycandan zorla qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistika aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması davam etdirilir. İcmanın yeni Nizamnaməsi təsdiq olunub. İcmada Müşahidə, Ağsaqqallar, Ziyalılar, Qadınlar və Qəyyumlar şuraları, İdarə Heyəti, Nəzarət-Təftiş Komissiyası, Gənclər Birliyi, xarici ölkələrdəki nümayəndəliklər kimi qurumlar yaradılıb.

Əvvəllər Bakıda Şuşa Şəhər İcra Hakimiyyətinin və "Qarabağa dönüş" İctimai Birliyinin yerləşdiyi bina İcmanın istifadəsinə verildikdən sonra təmir edilib və zəruri avadanlıqlarla təchiz olunub. Ümumi sahəsi 1280 kvadratmetr olan dördmərtəbəli binada 23 iş otağı, iclas və konfrans zalları, habelə müxtəlif yardımçı otaqlar mövcuddur. Binada ulu öndər Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fəaliyyətlərini, habelə Qərbi Azərbaycandan olan görkəmli ziyalılar barədə məlumatları əks etdirən fotostendlər, Qərbi Azərbaycan abidələrinə dair tablolar, 5 arxiv xəritəsi, Ulu Öndərin və Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı nitqlərini əks etdirən videomateriallar nümayiş olunur. Binada, həmçinin Qərbi Azərbaycandan olan elm adamlarının və ədiblərin elmi, bədii və publisistik əsərləri sərgilənir.

Prezident İlham Əliyev bu görüşün Qərbi azərbaycanlıların qayıtmaq inamını daha da möhkəmləndirdiyini bildirib: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Möhtərəm Prezidentimiz doğum günündə Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə görüşündə verdiyi mesajlar Azərbaycan cəmiyyətinin öz tarixi keçmişinə bir daha diqqət yetirməli olduğunu göstərdi. Eyni zamanda bir daha dünya ictimaiyyətinə bəyan etdi ki, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər, tarixi xəritələr, bizim tariximiz təsdiqləyir. "Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır". Xüsusilə bu fikirlərdə Qərbi azərbaycanlıların Vətən həsrətinə son qoyulacaq günün yaxınlarda olacağı əks olunur.

Hazırda tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir. Belə ki, bu haqda cənab Prezident fikir söyləyərkən indiki binanın vaxtilə Qarabağ İcmasına verildiyini xatırladtı. Çıxışında dedi ki, "İcma öz fəaliyyətini göstərdi, Qarabağ azad edildi. Qərbi Azərbaycan İcması da eyni şəkildə fəaliyyət göstərəcək, İrəvana və Zəngəzura qayıdacağıq. Biz hamımız bir məqsəd uğrunda çalışacağıq". Prezident Qərbi Azərbaycan İcmasının fəaliyyət istiqamətləri haqqında danışarkən mühüm məsləhət və tövsiyələrini çatdırdı. İcmanın gələcək fəaliyyətində çox mötəbər bir rəqəmsal platforma yaradılmasından bəhs edərək, orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır.

Eyni zamanda qayıdış konsepsiyasının hazırlanması haqqında danışan cənab Prezident "Bu sülhsevər konsepsiya olmalıdır, biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik" demişdir.

Prezident Azərbaycan xalqının bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqlarının təmin edilməsi istiqamətində atılmalı olan zəruri addımlar barədə fikirlərini açıq şəkildə ifadə etmişdir. Hər bir azərbaycanlı ümid edir ki, gün gələcək qədim torpaqlarımız bütöv olacaq və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımıza qayıdacaqlar. Necə ki, Azərbaycan xalqının əzmi sayəsində işğal olunan torpaqlar azad olundu, eləcə də digər torpaqlarımıza da qovuşacağıq. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Xalqın tarixi yaddaşı doğma torpaqlarımıza olan sevgini hər zaman qoruyub.

Qərbi Azərbaycan İcması da yüz minlərlə üzvünün hüquqlarının müdafiəsi və onların doğulduqları torpaqlara qayıdışının baş tutması üçün əzmlə çalışır. Bunun nəticəsidir ki, Qərbi azərbaycanlıların haqq mübarizəsini təkcə bütün dünya azərbaycanlıları deyil, tərəqqipərvər dünya ictimaiyyəti də dəstəkləyir. 2022-ci ilin dekabrın 5-6-da keçirilən "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" adlı II Beynəlxalq Konfransa dünyanın 51 ölkəsindən 100-dən çox xarici qonağın, ölkəmizdə akkreditə olunan diplomatik korpusun nümayəndələrinin qatılması bunun əyani göstəricisidir.

16 iyun 2022-ci il tarixində Prezident İlham Əliyev "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılışında da qarşı tərəfə çox mühüm mesajlar ünvanlamışdı. Bildirmişdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altında qoymağa davam etsə, rəsmi Bakının başqa seçimi olmayacaq və Ermənistanın ərazi bütövlüyünü sual altında qoyacaq. Çünki son ərin tarixi aydın şəkildə göstərir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşdirilməsindən 6 ay sonra sovet hökuməti Azərbaycanın tarixi hissəsi olan Zəngəzuru qoparıb Ermənistana verib. Ona görə də əgər Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etsə, nə üçün Azərbaycan Qərbi Zəngəzurdan olan azərbaycanlılar üçün status tələb etməsin? Çünki orada yüz illərlə azərbaycanlılar yaşayırdı. Prezidentin bu açıqlamaları erməni cəmiyyətinə xəbərdarlıq olsa da Ermənistan müharibədən sonra yaranan reallıqlarla hələ də barışmağı bacarmır. Bu da öz növbəsində tarixi nöqteyi-nəzərdən Azərbaycanın tapdanmış hüquqlarının bərpasını gündəmə gətirir.

Möhtəşəm Zəfərlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni geosiyasi reallıqlar fonunda Prezident İlham Əliyevin tarixi ədalətin bərpa edilməsi konsepsiyasının davamı məhz məcburi köçkünlərin və qaçqınların Böyük Qayıdışını təmin etmək, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, haqqını özünə qaytarmaq vəzifəsidir. Dövlət başçısının bu yol xəritəsini sonadək reallaşdırmaqla bağlı güclü siyasi iradəsi ortadadır. Ölkə Prezidentinin təşəbbüsü və birbaşa nəzarəti ilə Qarabağda və Ermənistan ərazisində tarixi Azərbaycan toponimlərinin əsl adlarının göstərildiyi xəritələrin hazırlanması, yeni dərsliklərin tərtib olunması, real tarixi faktların yetişən nəsillərə ötürülməsi, beynəlxalq müstəvidə təbliğat işinin gücləndirilməsi bu fəaliyyətin əsas istiqamətləridir.

Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında söylədiyi nitqi ilə Azərbaycanın ictimai-siyasi həyatında yeni bir mərhələyə - Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi, bu tarixi torpaqlarımızdakı maddi və mənəvi irsimiz uğrunda mübarizə mərhələsinə start verilib. Qərbi Azərbaycan ərazisində tarixi-mədəni abidələrimizin, toponimlərimizin, coğrafi adlarımızın, xalqımızın folklor nümunələrinin öyrənilməsi və təbliğinin hər bir azərbaycanlının borcu olmalıdır. Dövlət başçısının qarşıya qoyduğu hədəfə nail olmaq üçün millət olaraq yenə yumruq tək birləşərək ideoloji, siyasi mübarizəmizi aparmalıyıq. Ermənilər vandalizm törədərək İrəvandakı abidələrimizi dağıdıblar, lakin müxtəlif faktlar - sənədlər, xəritələr qalmaqdadır. Qərbi Azərbaycanın elmi irsi araşdırılmalı, mədəniyyətini dünyaya tanıtmaq üçün fəal işlər görülməlidir. Bunun üçün hər kəs bacardığı işi layiqincə yerinə yetirməlidir, gənc nəslin tarixi yaddaşı gücləndirilməlidir. Qərbi Azərbaycandan olan ziyalılar Zəngəzurun, İrəvanın Azərbaycan ərazisi olduğunu bütün dünyaya çatdırmaq üçün fəal çalışmalıdırlar.

**Mustafa KAMAL,**
**"Respublika".**